

**Səməd Vurğun Azərbaycanın nadir söz və fikir sahiblərindən biridir. Zamanın sözünü sözün zamanında deməyi bacaran Səməd Vurğun poeziyası üçün ilk növbədə sadəlik və xəlqilik xarakterikdir. O, vətənin və poeziyanın yaddaşında təkrarsız poetik şəxsiyyət, milli və beynəlmiləl ictimai xadim, elm və sənət təşkilatçısı, fitrətən şair, dramaturq, mütərcim və mütəfəkkir kimi yaşayır.**

# Azərbaycan ədəbiyyatında Səməd Vurğun yaradıcılığı

**İyirminci əsr Azərbaycan ədəbiyyatının yaranma və yüksəlişində misilsiz xidmətləri olan, onu ölməz bədii əsərləri, elmi və nəzəri mülahizələri ilə zənginləşdirən xalq şairimiz haqqında Bəxtiyar Vahabzadə belə demişdir: "Səməd Vurğun böyük ideallar, böyük duyğular və arzularla yaşamış, sənətini də bu idealların tərənnümünə həsr etmişdir" (1, s.3).**

Ölməz şair, yaradıcılığında vətənimizin çox qədim dövrlərindən başlayaraq bu günə qədər yaşadığı böyük bir tarixin ən mühüm dövrlərini, bu dövrlərin qabarıq cəhətlərini poeziyanın cazibədar dili ilə, özünəməxsus şəkildə əks etdirməyə çalışmışdır. O, bununla da kifayətlənməmiş, böyük ideallarla yaşayan xalqımızın gələcək arzularını romantik bir vüsətlə tərənnüm etmişdir. Beləliklə, böyük şairin yaradıcılığını xalqımızın keçmişini, bu gününü və gələcəyini əks etdirən nəhəng güzgüyə bənzətmək olar. Bütün bunlarla yanaşı, istər tarixi mövzuya, istər realist, istərsə də romantik səpgidə yazdığı əsərlərinin hamısında Səməd Vurğun həmişə müasir olmuş, tarixi, əfsanəvi mövzuları da zamanın tələbi baxımından işləmiş, onlara bu günün gözü ilə baxmağı bacarmışdır.

Səməd Vurğun poeziyası da, biblioqrafiyası da bilavasitə xalqın tarixinin və taleyinin iradəsidir desək yanılmarıq. Belə ki, XX əsrin ortalarındakı dövrün böyük romantik ənənəsi hamıdan çox Səməd Vurğunun adı ilə bağlıdır. Füzulidən və Hafizdən, Məhəmməd Hadidən və Hüseyn Caviddən sonra romantik poeziyada ən böyük yeri Səməd Vurğun tuturdu. Yazdıqlarımıza istinad edərək belə qənaətə gəlmək olur ki, Səməd Vurğun sənətinin kökü xalqın bağrında, Azərbaycan torpağındadır. Buna görə onun misralarında yaşıl çəmənlərin ətri, bülbüllərin cəh-cəhi, bulaqların zümzüməsi, Azərbaycan çörəyinin dadı vardır. Bu sənət torpaqdan cücərdiyi üçün onda sözlərin axarı təbii, hisslər səmimi, fikirlər ürəyəyatımlıdır.

XX əsr dünyasının ən mürəkkəb hadisələri ilə qaynayıb-qarışan, yalnız öz xalqının deyil, bütün xalqların həyat və müqəddəratını düşünən humanist amal və ideyaların carçısı olan bu böyük şairin yaradıcılığı yalnız öz xalqının həyatı ilə məhdudlaşmır, ümumbəşəri səciyyə alır. Məhz buna görədir ki, şair "Yanğın" (5, s.50) şeirində:

*Ulduzlar qan qusur ... göylər sağırdır.*
*Bir anlıq zülmətdə sönür min çıraq.*
*Mən indi bildim ki, xeyli ağırdır*
*Dünyanı düşünən bir şair olmaq!*

- deyir. Bəli, bu mənada Səməd Vurğun müasir dünyamızın ən böyük sənətkarlarından biri sayıla bilər. Bu unudulmaz sənətkarımızın doğma diyarı Azərbaycana həsr etdiyi "Azərbaycan" (5, s.176) şeiri ədəbiyyatımızın incilərindəndir. Bu şeirdə Azərbaycanın qədim tarixi, təbii gözəlliyi, nemətləri, xalqımızın xeyirxahlığı, açıqürəkliyi və qonaqpərvərliyi öz əksini tapmışdır. Bu şeirində Səməd Vurğun insanı valeh edən musiqili və ahəng misraları, oynaq, orijinal qafiyə və rədifləri ilə doğma vətəninə olan coşğun hisslərini, məhəbbət və arzularını ifadə etmişdir. Xalqın xoşbəxtliyi onu sevindirir, yazmağa ilham verir. İlk baxışdan adi söz və ifadələrdən ibarət olan bu şeirin üstünlüyü məhz sadəliyində və bu sadəliyin içərisindəki böyüklüyündədir.

*Mən bir uşaq, sən bir ana,*
*Odur ki, bağlıyam sana.*
*Hansı səmtə, hansı yana*
*Hey uçsam da yuvam sənsən,*
*Elim, günüm, obam sənsən*

Əslində, bu şeir adi şeir deyil, xalqın adından deyilmiş himndir. Bu məqamda Y. Qarayevin Səməd Vurğun haqqında yazdıqlarını qeyd etmək çox yerində olardı: "Səməd Vurğun vətən və poeziya sözləri ni həmişə bir yerdə, sinonim kimi işlətmiş, bir sənətkar və ictimai xadim kimi bu təlimin cəngavər carçısı, əsgəri və sərkərdəsi olmuşdur. Odur ki, bu gün "Vurğun" sözünün özünü də "Vətən" və "poeziya" sözlərinə qaynayıb-qarışmış şəkildə görürük" (6, s.4) .

Şairin yaradıcılığında "Deyin-gülün övladlarım", "Düşüncələr", "Şair, nə tez qocaldın sən", "Yada sal məni", "Dostluq hədiyyəsi", "Gödəkçə" və sair şeirləri çox oxunaqlı, qəlbə yaxındır.

Unudulmaz şairimiz qayğıkeş və çox mehriban ata idi. Onun "Xavərə" (5, s.216) adlı şeiri bu sevginin gözəl ifadəsidir:

*Yusifin, Vaqifin görüm var olsun,*
*Aybəniz hamıdan bəxtiyar olsun.*
*Yüz il də Vurğuna Xavər yar olsun,*
*Ən əziz sirdaşım, köməyim sənsən.*

Şairin poeziyasında "Mən tələsmirəm" (5, s.225) şeiri xüsusi maraq doğurur. Bahar gecələrindən birində dostlarla məclis quran şair ulduzlu gecənin hüsnünə dalır, səhərin gecikməsini istəyir. Çünki o hələ dünyadan, onun gözəlliklərindən doymamışdır. Konkret bir zaman, şərait və vəziyyətdən doğan bu şeirdə şair bir anı, həmin vəziyyəti tutub saxlamaq istəyir.

*Bu aylı gecədə, bu dağ döşündə,*
*Bu sazlı-söhbətli bulaq başında*
*Bu saat, bu dəm*
*Heç yana, heç yerə mən tələsmirəm!*

Şairin yaradıcılığında Böyük Vətən Müharibəsi dövrü xüsusi ter tutur. Müharibə əleyhinə yazılmış "Ananın öyüdü" (6, s.4) şeiri bu baxımdan çox diqqəti çəkir. Şeirdə vətən timsalında verilən ana surəti olduqca maraqlıdır. Ana deyir:

*Biz sənsiz də dolanarıq, uğur olsun yoluna,*
*Qılıncını çalan zaman, qüvvət gəlsin qoluna.*
*Sən düşmənin qabağında igid tərpən vüqarla*
*Tüfəngini təmiz saxla, atını da tumarla!*

Misralardakı təbiilik insanı valeh edir. "Biz sənsiz də dolanarıq" ifadəsi şeirin səmimiyyətini və təsir gücünü artırır. Ananın öyüdü bitincə oğul dağ kimi tərpənib yola düşür. Bu zaman "günəş yaydı şöləsini vətənin göylərindən" deyən şair gözəl bir lövhə ilə şeirə yekun vurur:

*Əsgər artıq yola düşdü, dağ tərpəndi yerindən;*
*Günəş yaydı şöləsini vətənin göylərindən.*

Vurğunun "Şəfqət bacısı", "İgid əsgər", "Qızıl şahinlər", "Ukrayna partizanları" şeirlərində də vətənpərvərlik, mübarizlik, cəsurluq hisləri öz əksini tapdığı kimi, "Muğan", "Aygün", "Bulaq əfsanəsi", "Zamanın bayraqdarı" və sair poemaları ədəbiyyatımıza misilsiz töhfədir.

Şair xalq əfsanə və rəvayətləri əsasında qələmə aldığı "Qız qayası","Bulaq əfsanəsi","Ölən məhəbbət","Ayın əfsanəsi" poemalarında qadın azadlığı məsələsinə toxunmuşdur və Azərbaycanın bir çox yerlərində söylənilən xalq əfsanələrini nəzmə çəkmişdir.

Təbiət şairi kimi tanınan Səməd Vurğunun dosta və dostluğa böyük məhəbbəti və səmimiyyəti var idi. Onun "Gödəkçə" (3, s.27) şeirində bu fikirlər öz təzahürünü tapır:

*Özünə baxmırsan...doğrudan da sən,*
*Elə bil canının lap düşmənisən!*
*Sonra əynindəki bir gödəkçəni*
*Mənə bağışladın o məclisdəcə.*
*Üstəlik, bir söz də dedin o gecə:*
*"Biz heç... qoy şairə soyuq dəyməsin!"*
*O ürəkdən gələn mehriban səsin*
*İndi də xatirimdədir...*

Dahi sənətkarımızın tarixi mövzuda müraciət etdiyi ölməz dram əsəri "Vaqif" bu gün də Azərbaycan ədəbiyyatının inciləri sırasındadır. Şair bu əsərində böyük şair Molla Pənah Vaqifin faciəli həyatını, sənətkar böyüklüyünü, insanlıq kamilliyini ustalıqla və xüsusi məhəbbətlə əks etdirmişdir. Ölməz sənətkarımız Azərbaycan poeziyasına çox incilər hədiyyə etmişdir. "Xanlar", "Fərhad və Şirin", "İnsan", "Hörmüz və Əhriman" və s. bu kimi gözəl, oxunaqlı əsərlər poeziyamızın yaraşığıdır.

Səməd Vurğun yaradıcılığındakı böyüklüyü M.İbrahimov obraz şəklində belə ifadə edir: "Siz ilk yaz yağışından sonra günəşin çıxmasını təsəvvür edin... Müxtəlif rəssamlar bu göy mənzərələrini əks edən müxtəlif ölməz tablolar yaradır.

Lakin bircə tabloda həmin günəşi, həm üfüqə yatmış köz kimi qızaran buludları, həm də şərid kimi uzanan göy qurşağını, yəni bütün göy mənzərəsini əks etdirən bir rəssama bir daha artıq minnətdar olarıq.

İndiki ədəbiyyatımızın istedadlı nəsli içərisində mürəkkəb xalq həyatı və varlığının belə bir mənzərəsini yaradan sənətkar haqqında düşünəndə qeyri-ixtiyari olaraq xəyalımızda Səməd Vurğun canlanır" (1, s.234).

**Əlbəttə, bu kiçik məqalədə xalq şairi Səməd Vurğun yaradıcılığının təhlilini vermək qeyri-mümkündür. Bu gün müasir, azad Azərbaycanda Vurğun poeziyası öz tarixi vətəndaşlıq missiyasını bir daha yenidən təkrar edir və bu poeziyanın işığından, bulağının çeşməsindən bir çox insanlar bəhrələnir.**

**İradə ƏLİYEVA,**
*Respublika Dövlət Elmi Tibb Kitabxanasında baş kitabxanaçı*

## Ədəbiyyat

1. Vahabzadə B. Səməd Vurğun. Bakı: Gənclik, 1984.
2. Vurğun S. Seçilmiş əsərləri (2 cilddə) I c. Bakı:Azərnəşr, 1976.
3. Vurğun S. Seçilmiş əsərləri (2 cilddə) II c. Bakı:Azərnəşr, 1976.
4. Vurğun S. El bilir ki, sən mənimsən. Bakı: Gənclik, 1970.
5. Vurğun S. Əsərləri Bakı:Elm, 1985.
6. Vurğun S. Seçilmiş əsərləri Bakı: Şərq-Qərb, 2005.

## Резюме

В статье исследуется поэтические взгляды и уникальные стихи выдающего Азербайджанского поэта Самеда Вургуна.

Автор на основе конкретных поэтических образцов отражает глубокую любовь поэта к Родине, человечеству и дружбе.

## Summary

In the article is investigated the poetical thoughts and unique poetry of the outstanding Azerbaijan poet Samed Vurgun.

The author based on the concrete poetical examples is reflected the great love of poet to the motherland, humanity and friendship.